# Qaçqınlarda şəxsiyyət böhranının təzahürləri

**Səbinə Fərrux qızı Salmanova**
*Bakı Dövlət Universitetinin fəlsəfə doktoru proqramı üzrə dissertantı*
**E-mail:** salmanova-sebine@bk.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos. M.C. İsmayılova,
psixol.ü.f.d., dos. T.T. Babayeva

**Açar sözlər:** şəxsiyyət böhranı, identiklik, elmi paradiqmalar, qaçqınlar, köçmə prosesi, gerçəklik

**Ключевые слова:** кризис идентичности, идентичность, научные парадигмы, беженцы, миграционный процесс, реальность

**Key words:** identity crisis, identity, scientific paradigms, refugees, migration process, reality

İdentiklik insan həyatının daima dəyişən cəhətlərindən biridir. İdentiklik həm fərdi, həm də kollektiv səciyyə daşıyır, müxtəlif amillərin - o cümlədən dəyişilmələrin, fərdi əhatə edən gerçəkliyin, yaşayış yerinin, yaşın, millətin, etnosun, dinin və s. amillərin təsirinə məruz qalır. Kuss identikliyi "vahid monolit nəsnə hesab etmir. O, müxtəlif mübahisəli elementlərin qarışığıdır və məqsədə doğru dayanmadan irəliləyir". İdentiklik dinamik və həm də çevikdir. Tədqiqatçıların belə bir qənaətə gəlməsi müxtəlif əhali təbəqələrinin və qrupların identikliyinin daxili inkişaf təcrübəsinin və situasiyanın öyrənilməsindən qaynaqlanır.

Müxtəlif istiqamətli və müxtəlif elmi paradiqmalar kontekstində identikliyə müxtəlif yanaşmalar özünü göstərir. Xolt göstərir ki, "identiklik insanın və onun şəxsi tarixinin yaradılması prosesidir, ancaq yaşayış yerindən birbaşa asılıdır". Yəni insanın konkret yaşadığı məkana münasibəti və həmin münasibətin çalarlarıdır. Agerin apardığı tədqiqat göstərir ki, qaçqınlarda identikliyin formalaşması sosial, mədəni, siyasi kontekstlərlə yanaşı öz identilkiyinin dəyişməsində fəal iştirakı da mühüm rol oynayır.

İdentikliyin dəyişməsi bir sıra faktlar əsasında baş verir. Bu amillər insanı başqaları ilə birləşdirir və ya fərqləndirir. Bu zaman insan özünü eyniləşdirmək üçün seçim imkanlarına malik olur, başqa hallarda isə belə bir seçim imkanı olmur.

Bir sıra tədqiqatçıların fikrincə, identiklik bir neçə elementdən təşkil olunmuşdur. Müxtəlif situasiyalarda insanların identikliyin hansı aspektini seçmələri onların yaşadığı şəraitin xüsusiyyətlərindən, etnik-milli cəhətlərdən və s. kimi amillərdən asılıdır. Müasir tədqiqatlarda identikliyin elementləri olduqca rəngarəng formada təqdim olunur və hesab edilir ki, identikliyin müxtəlifliyi insanların yaşadığı şəraitin müxtəlifliyi, doğma yurd-yuvalarında mövcud olan münasibətlər, təbiət gözəlliyi və s. asılıdır.

Bir çox tədqiqatçıların fikrincə, qaçqınların identikliyinin formalaşmasına yaşadığı məkan çox ciddi təsir göstərir. Qaçqınlarda formalaşmış identikliyin yeni şəraitdə yeni tələblər qarşısında qalması, yeni hüquqi və insani münasibətlər konteksti və s. kimi amillər onların identikliyində böhranın yaranmasına səbəb olur.

Qaçqınların identikliyi digərlərinə nisbətən olduqca mürəkkəbdir və yalnız daxili hisslərin, əqidələrin, etnik və mədəni ənənələrin təsiri ilə onun formalaşması başa çatmır. Burada həm də xarici amillər, o cümlədən köçmə prosesinin əziyyətliliyi, mədəni və iqtisadi məqamlar si-

yasi və sosial şəraitdə də ciddi təsir göstərir. Zamanla qaçqınlar sıxışdırılma nəticəsində identikliyin dəyişilməsi kimi mürəkkəb prosesə məruz qalırlar.

Qaçqınların identikliyinin yenidən formalaşması prosesi üç mərhələdən keçir: ilkin mərhələ; sığınacaq axtarışı; qaçqın statusunun alınması. Qaçqınların bu prosesdə çox zaman sığınacaq alana qədər müəyyən gözləntiləri, digər tərəfdən müharibə zamanı onların başına gətirilən əzab-əziyyətlər onların şəxsi identiklik sferasında böhranın yaranmasına zəmin yaradır. Çox zaman onları evsiz-eşiksiz insanlar kimi təsəvvür edirlər. Belə təsəvvürlər onlarla münasibətdə və ünsiyyətdə də özünü göstərir ki, bu da qaçqınların şəxsiyyətinə neqativ yönümdə təsir edir və onlarda identiklik böhranın yaranmasını şərtləndirir.

Qaçqınların məcburi miqrasiya prosesində və adaptasiyasında yarana biləcək ən ağır psixoloji fəsadlardan biri qeyd etdiyimiz kimi identiklik böhranıdır. İdentiklik böhranı adətən özü-özünü itirmək hissi, dəyişən cəmiyyətə uyğunlaşa bilməmək, yeni situasiyanın irəli sürdüyü tələblərlə köhnə fikirlər və baxışlar arasında yaranan uyğunsuzluq kimi müəyyən edilir. İdentiklik nəzəriyyəsinin yaradıcılarından olan Erik Erikson psixososial böhranı şəxsiyyətin inkişafı yolunda yeni, daha yetkin identikliyin əldə edilməsinə doğru labüd mərhələ kimi nəzərdən keçirir. O, həmçinin qeyd edir ki, identiklik böhranı insanların müəyyən qruplarında, təbəqələrində və tarixin bəzi dövrlərində, sanki "ikinci dəfə dünyaya gəlmək" kimi meydana çıxır. Bu baxımdan yeni sosial-mədəni mühitə düşən qaçqınların böyük əksəriyyəti eyni ilə "ikinci dəfə dünyaya gəlmək" hissi keçirirlər. Sanki onlar yenidən doğulmuşlar.

Qaçqınlarda identiklik böhranının yaranmasına təhlükəsizlik hissinin itirilməsi də ciddi təsir göstərir. Geniş tədqiqatlar şəbəkəsində identiklik və təhlükəsizlik məsələləri geniş şəkildə tədqiq edilmişdir. Kempell göstərir ki, dövlətin öz ərazisini vətəndaşların xoş rifahı üçün təmin etməyə çalışması təhlükəsizlik obyektiv şərt sayıla bilməz. O, göstərir ki, bu diskursiv praktikadır. Onun vasitəsilə dövlət öz vətəndaşlarının identikliyini ərazi sərhədləri baxımından məhdudlaşdırır (1, s. 200).

Belə halda identiklik verilmir, hər şeydən öncə fərdin reprezentasiya prosesi vasitəsilə özünü yaşadığı başqa bir dünyada təsəvvür edir. Bu reprezentasiyalar kollektiv yaddaşın və təxəyyülün təhkiyəsidir. Bu onu mümkün edir, dünyanı müəyyənləşdirir və belə şəkildə onun formalaşdırır (1, s. 14).

Stam və Diksit göstərirlər ki, identiklik fasiləsiz kontekt-asılı proses olub, fərqliliklə əlaqəli şəkildə bərpa olunur və ya yenidən qurulur (2, s. 7). Bu mənada qaçqınlarda özümlülük o mənada başa düşülür ki, o "başqasına" oxşamır (2, s. 46). Təbii ki, identikliyin qurulması təhdidlərin mövcudluğu şəraitində insanın təhlükəsizlik hissinin bərpa olunması sayəsində mümkündür. Əks halda onun yenidən qurulması mənasızdır.

Şübhəsiz qaçqınlarda identiklik quruculuğu, iki və ya daha çox potensial antoqonist mənliyə ekzistensial təhdidlər vasitəsi ilə qarşı çıxmaqla özünə güvənsizlik hissi yaradır. Bu özünəinamsızlıq identilk böhranına aparan yoldur.

Tədqiqatlar göstərir ki, bir qayda olaraq qaçqınlarda identiklik transformasiyası hələ köçməzdən əvvəl yaranır. Müxtəlif vəziyyətlərdə qaçqın olmaq haqqında hər hansı qərarın verilməsi mürəkkəb faktların təsiri altında həyata keçir. Bu olduqca ağrılı prosesdir. Məlumdur ki, qaçqınlıq vəziyyəti xüsusi ekstremal vəziyyətlərdə baş verir. Xüsusi olaraq onlardan daha faciəlisi əlbəttə ki, qaçqınların çıxış yerlərində onların həyatına təhlükə yaradan hərbi hərəkətlərdir. Müharibənin, qan tökülməsinin şahidi olmuş, doğmalarını və yaxınlarını itirmiş insan mövcudluq normaları və dəyərlərini əsaslı surətdə başqa şəkildə dərk edir. Bu zaman onun ətrafdakılarla qarşılıqlı münasibəti və özünə münasibəti də dəyişir. "Dinc", təhlükəsiz mühitə düşərkən ətrafdakıların gündəlik problemləri ona kiçik və əhəmiyyətsiz görünür. Əgər kimin-

sə oxşar həyat təcrübəsi yoxdursa, o, faciəli hadisələri yaşamış və həyatda çox şey itirmiş insanı anlamaq iqtidarında deyil (1, s. 60).

Müharibə şəraitində aldıqları mənəvi-psixoloji və fiziki zərbələrdən sonra məcburi köçkünlərin və qaçqınların şəxsiyyəti növbəti zədəni yeni sosial-mədəni mühitdə həyat şəraitinə uyğunlaşma prosesində alır. Məhz bu adaptasiya mərhələsində köçməzdən əvvəl baş vermiş identiklik dəyişikliyi və ya böhran vəziyyətindədir. Qaçqın öz şəxsiyyəti üçün faciəvi nəticələr daşıyan iki mühüm həqiqəti kəşf edir. Bunları aşağıdakı kimi göstərmək olar :

— Əvvəla, özünün yerli əhaliyə bənzəməməsini dərk etməyə başlayır.

— İkincisi, öz dəyərsizliyini və faydasızlığını kəskin şəkildə hiss edir.

— Üçüncüsü özünü "aşağılıq" kompleksində (öz ev-eşiyini qoyub gəlmiş adam kimi) hiss edir (3, s. 10).

Demək olar ki, bütün qaçqınlar identiklik böhranından keçir. Obyektiv və subyektiv səbəblərə görə bəzilərində bu daha qabarıq, digərlərində isə daha az hiss edilir. Maddi və mənzil problemlərin qismən və ya bütünlüklə həll olunması böhranın gedişini yalnız azaltmağa kömək edir. Lakin ondan yayınmağa kömək etmir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən əziyyət çəkmiş məcburi köçkünlərin sosial-psixoloji vəziyyətinin qiymətləndirilməsi və onlarla praktik iş zamanı alınan materialların təhlili əsasında onların sosial identikliyinin məzmun və strukturunun transformasiyasının nəticələrinin təhlilindən belə qənatə gəlmək olar ki, identikliyin hər bir komponenti, ilk növbədə, ən vacibləri: mülki, etnik-mədəni, gender, ailə, peşə, yaş dövrü komponentləri çox və ya az dərəcədə transformasiya olunur. Doğrudur, Ermənistandan və Dağlıq Qarabağdan, ətraf rayonlardan məcburi köçkün və qaçqın düşmüş əhali ilk növbədə öz ölkəsinə pənah gətirmişdir. Ona görə də onlarda etnik-mədəni identiklik böhranının yaranmasını söyləmək olmaz. Amma digər vacib elementlərdə, hər şeydən əvvəl isə şəxsiyyət identikliyində böhran müşahidə olunur (3, s. 60).

Məlumdur ki, qaçqınların özünəməxsus regional milli-etnik xüsusiyyətləri, adət-ənənələri və dəyərləri vardır. Bu dəyərlərin dəyişməsi ilə yəni, mədəni identikliyin ardınca gender rolu da dəyişir. Yeni mühitdə mədəniyyəti üçün tamamilə tipik olmayan daha sərbəst həyat tərzi formalaşır.

Qaçqınlarda məşğuliyyət növünün dəyişməsi zamana münasibətində dəyişikliklər yaradır. Bir mədəniyyətdən digərinə düşmək artıq özü-özlüyündə zaman perspektivlərinin ciddi və ağrılı transformasiyalarına gətirib çıxarır. Qaçqınların yaşadığı şəxsi faciələr qəbul edildiyi ölkədə vəziyyətinin qeyri-müəyyənliyi ilə dərinləşir. Əksər hallarda reallıq hissi onların gəldiyi zamanla indiki zaman arasında ilişib qalır.

A. Soldatovanın apardığı tədqiqat göstərir ki, qaçqınlarda etnik özünüdərk hipoeynilik (şəxsi etnik qrupunun dəyərlərindən imtina, etniki nihilizm) və ya hipereynilik (etnoizolyasionalizm, etnoeqoizm, milli fanatizm tipinə görə) və yaxud nevrotik etnofobiya tipinə görə parçalana, deformasiyaya uğraya və ya güclənə bilər (3, s. 145). Əgər digər ölkənin ərazisinə gedərkən əcnəbi miqrantlar mədəniyyət fərqlərinin mövcudluğunu ehtimal edirdilərsə, azərbaycanlı köçkünlər köçməzdən əvvəl əmindirlər ki, onlar "özününkülərin" arasında olacaqlar. Buna görə də məcburi miqrasiyadan sonra yerli əhali ilə özləri arasındakı fərqləri dərk etdikdə onların özünüdərketməsinə ağır zərbə vurulur.

Qaçqınlarda etnik identikliyin dəyişməsi də onların şəxsiyyət böhranına təsir göstərir. Bu baxımdan R.V. Cabbarov yazır: "Etnik identikliyin transformasiya istiqamətləri həm obyektiv səbəblərlə, həm də fərdi xüsusiyyətlərlə müəyyən edilir. Məcburi köçkünlərin identikliyinin necə dəyişməsinə əhəmiyyətli dərəcədə təsir edən mühüm amil köçürülmədən əvvəl baş verən hadisələrdir. İnsanların Dağlıq Qarabağdan və ətraf 7 rayondan zorla köçürülməsi və miqrasi-

yası etnik münaqişə və müharibənin lokal döyüşlərə keçməsi, eləcə də ermənilərin ayrı-ayrı yerlərdə qətliamlar şəraitində olmuşdur. Bu isə öz etnik qrupuna kəskin şəkildə üstünlük vermək hissini və qonşularımız olan ermənilərə münasibətdə açıq-aydın ifadə olunan neqativizm köçkünlərdə hipereynilik çılğınlığını stimullaşdırırdı. Getməzdən əvvəl baş verən faciəvi hadisələr müharibə, insanların həlak olması ona gətirib çıxardı ki, hərbi münaqişə zonalarından olan məcburi köçkünlər üçün etnoeqoizm, etnoizolyasiya və milli fanatizm tendensiyalarının güclənməsi əsas amil kimi özünü göstərdi. Məsələn, hərbi hadisələrin baş verməsindən əvvəl gələn məcburi köçkünlər digər qruplarla müqayisədə etnik indifferentlik, etnonihilizm və yüksək pozitiv etnik eynilik nümayiş etdirirdilər (1, s. 60).

Təkcə getməzdən əvvəl olan hadisələr deyil, həm də yeni yerdə həyat şərtləri etnik eyniliyin istiqamətinin dəyişməsinə təsir edir. Belə ki, müxtəlif mənzil şəraiti olan məcburi köçkünlərin dörd kateqoriyasındakı (xüsusi evi var, məcburi köçkünlər üçün tikilmiş evlərdə yaşayırlar, yataqxanada yaşayır, qohumlarının və tanışlarının yanında yaşayır) xüsusi evi olmayan və yataqxanada yaşayan köçkünlərdə hipereynilik tendensiyaları kəskin nəzərə çarpır (etnoeqoizm, etnoizolyasiya və milli fanatizm). Yaşayışla təmin olunmamaq, bəlkə də məcburi köçkünlərə yaşanan hadisələri unutmağa imkan verməyən kompakt həyat tərzi digər etnik qruplara neqativ münasibətin güclənməsinə səbəb olur. Məhz həmin kateqoriyada, eyni zamanda digər kateqoriyalarla müqayisədə əhəmiyyətli dərəcədə daha çox ifadə olunan etnonihilistik tendensiyalar – öz etnik-mədəni dəyərlərinə riayət etməmək arzusu aşkar edilir. Beləliklə, daha çox yaşayışla təmin olunmayan məcburi köçkünlərin şüurunda digər qruplara neqativ münasibət öz qrupuna neqativ münasibətlə yanaşı mövcuddur.

Etnik özünüdərketmənin dəyişikliklərində cinsi və yaş dövrü xüsusiyyətləri də mühüm rol oynayır. Hipereynilik tendensiyaları məcburi köçkün kişilərdə məcburi köçkün qadınlara nisbətən daha güclü şəkildə özünü göstərir. Tədqiqatların nəticələri təsdiq edir ki, digər etnik qruplara neqativ münasibətin formalaşması ən gənc məcburi köçkünlər üçün daha çox səciyyəvidir. Eyni zamanda orta yaşlı insanların özünüdərketməsi öz etnik qrupunu tanımamaq və ya neqativ münasibət tərəfə transformasiya edilir. Qeyd olunanları ümumiləşdirsək belə qənaətə gələ bilərik ki, identiklik böhranının təzahürlərini qaçqınların şəxsiyyətinin mövcudluğunun bütün səviyyələrində xüsusilə şəxsiyyət, şəxsiyyətlərarası və qruplararası səviyyələrdə aşkar etmək olar. Şayqerova belə pozuntuların və ya böhran hallarına şəxsiyyət səviyyəsində olan pozuntuları aid edir: Yaşanmış hadisələr və yeni mühitə düşmək özünəmünasibətin ciddi transformasiyalarına gətirib çıxarır. Əvvəllər vacib olan xarakteristikalar öz əhəmiyyətini itirir, şəxsiyyətin özü haqqında təsəvvürlərə isə yeni komponentlər daxil edilir. Özünüqiymətləndirmə kəskin şəkildə aşağı düşür, öz şəxsiyyətinə neqativ münasibət yaranır: "Mən heç nə bilmirəm, bacarmıram, bilmirəm" ( 3, s. 97).

Məcburi köçkünlər özlərini "müdafiəsiz", "bəxtsiz", "uğursuz", "tez sınan", "lazımsız", "məzlum", "hüquqsuz" kimi xarakteristikalarla təsvir edirlər. Öz zəifliyində, köməksizliyində, müdafiəsizliyində təsbit baş verir.

Q. Soldatova yazır ki, "Ümumilikdə adi insanlarla müqayisədə məcburi köçkünlərdə neqativ özünü səciyyələndirmə daha çox üstünlük təşkil edir, bununla da özlərinin əhəmiyyəti və dəyərlərinin aşağı düşməsini əks etdirirlər. Bu zaman şəxsiyyətin özünüqiymətləndirməsi sabit olmur, ziddiyyətli xarakter daşıyır ya qeyri-adekvat şəkildə yüksəlir, ya da aşağı düşür. Tədqiqatların nəticələri göstərir ki, bir sıra hallarda məcburi köçkünlərin özünüqiymətləndirməsi normativ göstəricilərdən əhəmiyyətli dərəcədə yüksək olur.

Yüksək özünüqiymətləndirmə və özünüdərketmədə üstünlük təşkil edən özünüalçaltma kompleksi arasında bənzər ziddiyyətlər aşağıdakı kimi izah edilir. Dəyərsizlik və lazımsızlıq

hissi insanın özünüdəyərləndirməsini aşağı salaraq həyat səviyyəsinin kəskin şəkildə artması, sosial statusun dəyişməsi, yeni dünyada öz yerini tapa bilməməsi ilə əlaqədar yaranır. Digər tərəfdən, obyektiv meyarlar bir çox məcburi köçkünlər üçün səciyyəvi olan keçmişdə yaxşı təhsil, kifayət qədər yüksək sosial vəziyyət və ehtiyacsız yaşamaq özünüqiymətləndirmənin aşağı düşməsinə imkan vermir. Nəzərə almaq lazımdır ki, natamamlıq hissi və şəxsi əhəmiyyətlilik yanaşı mövcuddur. Bu zaman insan özü haqqında təsəvvürlərin bütövlüyünü itirir, sabitlik pozulur, şəxsiyyət böhran vəziyyətinə düşür və bu proses uğurlu adaptasiyaya mane olur.

**Məqalənin aktuallığı.** İstər siyasi baxımdan, istər sosioloji, istərsə də psixoloji baxımdan identiklik anlayışının psixoloji mahiyyətinin sistemli şəkildə aydınlaşdırılması və qaçqınlarda şəxsiyyət böhranının təzahürlərinin müəyyənləşdirilməsi bütün dövrlər üçün öz aktuallığını qoruyub saxlayır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə identiklik anlayışının psixoloji mahiyyətinə sistemli şəkildə aydınlıq gətirilmiş və qaçqınlarda şəxsiyyət böhranının təzahürləri haqqında geniş və hərtərəfli məlumat verilmişdir. Müəyyən olunmuşdur ki, qaçqınlarda identikliyin formalaşması sosial, mədəni, siyasi kontekstlərlə yanaşı öz identikliyinin dəyişməsində fəal iştirakı da mühüm rol oynayır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** İdentiklik anlayışının psixoloji mahiyyətinin aydınlaşdırılması və qaçqınlarda şəxsiyyət böhranının təzahürlərinin müəyyənləşdirilməsi bütün dövrlərdə cəmiyyətdə gedən siyasi və sosial proseslərin düzgün istiqamətdə aparılması üçün çox vacibdir. Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrlər istifadə edə bilər.

## Ədəbiyyat

1. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində travmaya məruz qalmlş insanların psixoloji vəziyyətinin qiymətləndirilməsi. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2017, 200 s.

2. Психология беженцев и вынужденных пересленцев. М.: Смысл, 2001, 275 с.

3. Г.У.Солдатова, Шайгерова Л.А, Шлягина Е.И. Нарушения етнической идетификации у руских мигрантов// Социологический журнал, 1994, № 3, с.144-150

4. Выготский Л.С. Психология Эксмо-пресс, 2002, 745с.

5. Чамата П.Р. К вопросу о генезиса самосознания личности. Проблема сознания. М.: 1968, 260 с.

6. История социологии в Западной Европе и США / под ред. Г.В.Осипова. – М., 1999. – с. 269-274

7. Стефаненко Т. Г. Адаптация к новой культурной среде и пути ее оптимизации. М.: Наука, 1999, 456 s.

**С.Ф. Салманова**

## Проявление кризиса идентичности у беженцев

## Резюме

В статье автор системно уточняет психологическую природу понятия идентичности и дает обширную и всестороннюю информацию о проявлениях личностного кризиса у беженцев. По мнению автора, идентичность динамична и гибка. Идентичность – это процесс создания человека и его личной истории, но он зависит от места жительства. То есть отношение человека к тому или иному месту жительства и оттенки этого отношения. Формирование идентичности у беженцев, наряду с социальным, культурным и политическим контекстом, также играет важную роль в их активном участии в изменении своей идентичности. Место, где живут беженцы, оказывает очень серьезное влияние на формирование их идентичности. Сформировавшаяся у беженцев идентичность сталкивается с новыми требованиями в новых условиях, в контексте новых правовых и человеческих отношений и т.д. Такие факторы вызывают кризис их идентичности.

Личность беженцев сложнее других, и ее формирование не ограничивается влиянием внутренних переживаний, убеждений, этно - культурных традиций. Внешние факторы, включая сложность миграционного процесса, культурные и экономические факторы, а также политические и социальные условия, также оказывают существенное влияние. Со временем беженцы подвергаются сложному процессу, такому как изменение личности в результате преследований. Известно, что беженцы имеют свои региональные национально-этнические особенности, традиции и ценности. По мере изменения этих ценностей меняется и гендерная роль, а за ней и культурная идентичность. В новой среде формируется более свободный образ жизни, что не совсем характерно для культуры. Изменения в роде занятий беженцев также меняются с течением времени. Падение из одной культуры в другую уже приводит к серьезным и болезненным трансформациям временных перспектив. Личные трагедии, пережитые беженцами, усугубляются неопределенностью ситуации в принимающей стране. В большинстве случаев ощущение реальности застревает между временем их прибытия и настоящим.

**S.F. Salmanova**

## Manifestation of identity crisis in refugees

## Summary

In the article, the author systematically clarifies the psychological nature of the concept of identity and provides extensive and comprehensive information about the manifestations of a personality crisis among refugees. According to the author, identity is dynamic and flexible. Identity is the process of creating a person and his personal history, but it depends on the place of residence. That is, the attitude of a person to a particular place of residence and the shades of this relationship. The formation of the identity of refugees, along with the social,

cultural and political context, also plays an important role in their active participation in changing their identity. The place where refugees live has a very serious influence on the formation of their identity. The identity formed by refugees is faced with new requirements in new conditions, in the context of new legal and human relations, and so on. Such factors cause a crisis of their identity.

The identity of refugees is more complex than others, and its formation is not limited to the influence of internal experiences, beliefs, ethno-cultural traditions. External factors, including the complexity of the migration process, cultural and economic factors, and political and social conditions, also have a significant impact. Over time, refugees undergo a complex process, such as personality change as a result of persecution. It is known that refugees have their own regional national and ethnic characteristics, traditions and values. As these values change, so does the gender role, and behind it the cultural identity. In the new environment, a freer way of life is being formed, which is not quite typical for culture. Changes in the occupations of refugees also change over time. The fall from one culture to another already leads to serious and painful transformations of time perspectives. The personal tragedies experienced by refugees are exacerbated by the uncertainty of the situation in the host country. In most cases, the sense of reality gets stuck between the time of their arrival and the present.

**Redaksiyaya daxil olub:**17.05.2022